# ENERJİ SİYASƏTİNİN YENİ MƏRHƏLƏSİ

**4 fevral 2022-ci il tarixində Prezident İlham Əliyevin iştirakı ilə "Gülüstan" sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısı keçirilib.**

XXI yüzilliyin ən irimiqyaslı layihələrindən biri olan Cənub Qaz Dəhlizi dörd hissədən - "Şahdəniz Mərhələ-II", Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP qaz kəmərlərindən ibarətdir. Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısına hər dəfə Azərbaycan ev sahibliyi edir. Bu, ölkəmizin layihədə aparıcı rolunu təsdiqləyən mühüm amillərdən biridir.

Məşvərət Şurasının iclasında ötən ildə görülmüş işlərin hesabatı verilib və gələcək addımlar müəyyən edilib. Vurğulanıb ki, Məşvərət Şurasının fəaliyyəti nəticəsində müəyyən nailiyyətlər əldə olunub. Ölkə başçısı Cənub Qaz Dəhlizinin uğurla tamamlanmasından şad olduğunu vurğulayıb və layihədə iştirak edən bütün tərəflərə səmimi minnətdarlığını bildirib.

Prezident İlham Əliyev çıxışı zamanı bildirib ki, Cənub Qaz Dəhlizi çox az nəhəng beynəlxalq layihələrdən biridir ki, ona bütün dünyanın aparıcı maliyyə institutları töhfəsini verib. O, iştirakçıları gələcəyə inamla baxmağa çağırıb, Cənub Qaz Dəhlizi tamamlandıqdan sonra Azərbaycanın dünya beynəlxalq bazarlarına, o cümlədən Avropa bazarlarına qaz ixracını artırdığını söyləyib.

## *Cənub Qaz Dəhlizi strateji cəhətdən önəmli layihələrdəndir*

2020-ci ilin son günü Azərbaycan qazının TAP-la (Trans-Adriatik Qaz Boru Kəməri) Avropa ərazisinə nəql edilməsi, eyni zamanda Cənub Qaz Dəhlizinin tam sistem kimi işə salınması demək idi. Azərbaycanın təşəbbüsü və liderliyi ilə gerçəkləşən Cənub Qaz Dəhlizi enerji ixracının şaxələndirilməsi layihəsidir. Yəni Azərbaycan qazı istehlakçılar üçün yeni mənbə oldu, bu dəhliz yeni enerji "damar"ı yaratdı. Cənub Qaz Dəhlizi ilə biz Avropanın enerji xəritəsini yenidən tərtib etdik. Cənub Qaz Dəhlizinin ən önəmli cəhətlərindən biri layihədə bütün iştirakçı tərəflərin maraqlarının təmin edilməsi, maraqlar balansının gözlənilməsidir. Belə ki, layihənin icrasında geniş beynəlxalq əməkdaşlıq formatı yaradaraq yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya, sonradan layihəyə qoşulan üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro layihənin digər mərhələlərində tərəfdaşlar kimi iştirak edirlər. Cənub Qaz Dəhlizi layihəsinin uğurla tamamlanması nümayiş etdirir ki, komanda şəklində aparılan iş həmişə yaxşı nəticə verir. Burada istehsalçı, tranzit və istehlakçı ölkələrin maraqları üst-üstə düşür. Toplantıda Prezident cənab İlham Əliyev, Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Kadri Simson, Avropa İttifaqı Qonşuluq Siyasəti və Genişlənmə danışıqları üzrə komissarı Oliver Varhelyinin, eləcə də ABŞ, Böyük Britaniya, Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Albaniya, Xorvatiya, Macarıstan, Monteneqro, Rumıniya, Serbiya, Şimali Makedoniya, Moldova, Bosniya və Hersoqovina, Ukrayna və Türkmənistanın yüksək səviyyəli nümayəndələri iştirak edib. Cənub Qaz Dəhlizi çərçivəsində nazirlərin VIII toplantısı "Cənub Qaz Dəhlizi: nailiyyətlər və perspektivlər - Cənub Qaz Dəhlizinin yeni enerji bazarları, o cümlədən Qərbi Balkan ölkələri istiqamətində genişləndirilməsi" və "Enerji keçidi - Karbohidrogen mənşəli yanacaqlardan və metan tullantılarının azaldılması tədbirlərindən karbon neytrallığına doğru: yollar, çağırışlar, qrafiklər" mövzularında plenar sessiyalarla davam edib.




Mühüm amil bundan ibarətdir ki, Cənub Qaz Dəhlizi sabit enerji təchizatının unikal elementidir. Enerji böhranının dünyada tüğyan etdiyi bir vaxtda Azərbaycanın həmtəşkilatçısı olduğu layihə avropalı istehlakçıların enerji təminatında böyük rol oynayır. Əminliklə demək olar ki, Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyinə xidmət edir.

Qeyd etmək lazımdır ki, 2021-ci il və həmçinin bu ilin yanvar ayı ərzində ümumilikdə Cənub Qaz Dəhlizi vasitəsilə Türkiyə, İtaliya, Gürcüstan və digər Avropa istehlakçılarına 18,5 milyard kubmetrdən çox təbii qaz ixrac edilib. Bu müddətdə təkcə Avropa ölkələri uzunmüddətli müqavilələr, habelə qısamüddətli spot əməliyyatları üzrə, təxminən, 8,9 milyard kubmetr Azərbaycan təbii qazı ilə təchiz olunub. Bu da bir daha onu göstərir ki, dəhliz enerji təhlükəsizliyinin təminatındakı strateji əhəmiyyətini Avropa ölkələri arasındakı interkonnektorlarla Qərbi Balkanlara və qitənin digər hissələrinədək genişləndirə bilər. Azərbaycan təbii ki, Avropa Komissiyası, eləcə də əlavə həcmlərdə qaz almaq istəyən və ya qaz idxalixrac etmək arzusunda olan ölkələrlə əməkdaşlıq etməyə və Cənub Qaz Dəhlizinin inkişafına töhfə verməyə hər zaman hazırdır. Nəzərə almaq lazımdır ki, milli səviyyədə koordinasiya bizə bu nəhəng layihə - XXI əsrin ən böyük layihələrindən biri olan Cənub Qaz Dəhlizini icra etməyə kömək etdi.

Dövlətimizin başçısı iclasda ötən illə müqayisədə daha çox ölkə və şirkətin iştirak etdiyini, yeni iştirakçı ölkələrin olduğunu, bu minvalla yeni bazarlarda da Azərbaycan qazına ehtiyacın yarandığını və nəticə etibarilə daha çox qaz mənbəyinə ehtiyac olduğunu bildirib.

Azərbaycan qazının payı ilə əlaqədar son məlumatlar göstərir ki, bu ölkələrin bəziləri qaz istehlakının 80 faizini, digərləri isə 15-20 faizini Azərbaycandan alırlar və bu rəqəmlər getdikcə artır. Ölkə başçısı iclasda bildirib ki, Azərbaycan hasilatı daha da artırmağı planlaşdırır. Bu il keçən illə müqayisədə daha çox qaz ixrac olunacaq. Qaz bazarında qeyri-sabit vəziyyəti nəzərə alsaq, potensial böyükdür.

Prezident həmçinin qeyd edib ki, Azərbaycanın demoqrafik vəziyyəti çox müsbətdir və ölkədaxili tələbat artıb. Ölkə başçısı həmçinin vurğulayıb ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərimizin qazlaşdırılması üçün əlavə həcmdə qaza ehtiyacımız olacaq.

Azərbaycanın dünyanın xam neft, neftkimya, təbii qaz, neft məhsulları, elektrik enerjisi ixrac edən azsaylı ölkələrdən olduğunu qeyd edən Prezident Azərbaycanın elektrik enerjisi potensialının Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsinə əsasən alçatanlıq reytinqinə görə 2-ci yerdə olmasını iştirakçıların diqqətinə çatdırıb.

Prezident İlham Əliyev tərəfdaşlara 44 günlük Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərimizin Yaşıl Enerji proqramının artıq hazır olduğunu, Azərbaycan Energetika Nazirliyinin aparıcı beynəlxalq şirkətlərlə birlikdə Qarabağ və Şərqi Zəngəzurda Yaşıl Enerji Zonası üçün konseptual proqnozun hazırlanması haqqında da məlumat verib.

**Emin QASIMOV,**
**"Respublika".**

Respublika.- 20 fevral.- 2022- ci il.- S. 3.